# Azərbaycan bərpa-quruculuq işlərinin öhdəsindən də bacarıqla gələcək



***Azərbaycan xalqı öz tarixinin ən yaddaqalan və şanlı dönəmlərindən birini yaşayır. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz 30 ilə ərzində dünyanın ən qüdrətli dövlətlərinin və nüfuzlu beynəlxalq təşkilatlarının, hətta BMT Təhlükəsizlik Şurasının nizamlanmaya bilmədiyi Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini 44 gün ərzində kimsənin köməyi olmadan həll etdi.***

Ermənistan üzərindəki qələbədən cəmi 6 gün sonra dövlətimizn başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş ərazilərə səfərə getdi və erməni faşistlərinin qəddarlığı ilə yerində tanış oldular. İlk səfər ötən il noyabrın 16-da işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına oldu. Onlar səfər zamanı Füzuli -- Şuşa avtomobil yolunun təməlini qoydular. Bununla da azad edilmiş ərazilərimizdə bərpa və yenidənqurma işlərinə start verildi.

İşğaldan azad edilmiş ərazilərdə başlanan yenidənqurma işləri Qarabağı cənnətə döndərəcək. Möhtərəm Prezidentimiz də çıxışlarının birində bu məqamı diqqətə çatdırıb: "Bizim planlarımız böyükdür. Müharibə başa çatıb. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında da bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam".

Qarabağda quruculuq işlərinin aparılması üçün 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılıb. Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə Qarabağ Dirçəliş Fondunu yaradıb.

Artıq bir sıra dost ölkələr -- Türkiyə, Pakistan, İsrail, Macarıstan, İran, İtaliya, Böyük Britaniya, ABŞ və digərləri işğaldan azad olunmuş ərazilərimizin bərpası prosesində iştirak etmək arzusunda olduqlarını bildiriblər.

Dövlət başçımızın işğaldan azad edilmiş ərazilərin dirçəlişi istiqamətində quruculuq, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, bu hədəfə nail olunmasında dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların əlaqələndirilmiş fəaliyyətinin gücləndirilməsi, habelə idarəetmədə çevikliyin və səmərəliliyin artırılması məqsədilə "İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında" fərmanı bu istiqamətdə atılan daha bir mühüm addım oldu.

Yüksək və müasir standartlarla həyata keçirilən bərpa-quruculuq işlərinə, ilk növbədə, Şuşadan başlanıldı. Qısa zamanda Şuşa həm regionun, həm də bütün dünyanın mədəniyyət mərkəzlərindən birinə çevriləcək. Dövlətimizin başçısının vurğuladığı kimi, biz Şuşanı dirçəldəcəyik.

Yaşayış üçün, ilk növbədə, infrastruktur layihələrinin icra edilməsi vacibdir. Təhlükəsiz yerlərdə layihələrin icrasına artıq başlanılıb. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı görülən işlər artıq ölkə ictimaiyyətinə məlumdur. Eyni zamanda, işğaldan azad edilmiş rayonlarda "yaşıl enerji" zonasının yaradılması məqsədilə, ilkin olaraq, pilot layihələr qismində bəzi yerlərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqinə start verilib. İlk "ağıllı kənd" layihəsi Zəngilan rayonunun Üçüncü Ağalı kəndində icrası rellaşacaq.

Dövlət başçısnın göstərişi ilə artıq Füzulu və Zəngilan rayonlarında beynəlxalq aeroport tikintisinə başlanılıb. Yeni dəmir yolunun tikintisi Qarabağın inkişafında mühüm rol oynayacaq. Bütün bu mərhələlər ardıcıl olaraq həyata keçirilir, bərpa və quruculuq işlərinin miqyası daha da genişlənir. Dövlətimizin başçısı da bərpa işlərinin tələsmədən, eyni zamanda, planlı şəkildə, ardıcıl olaraq həyata keçirilməsinin vacibliyini qeyd edir. İşğaldan azad olunmuş ərazilərimizə yeni nəfəs, yeni həyat qayıdır. Vahid Azərbaycan dövləti inamla inkişaf edir və bərpa-quruculuq işləri müvəffəqiyyətlə həyata keçirilir.

***Səhər İSMAYILOVA,***
***Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının sektor müdiri, politoloq***

Xalq qəzeti 2021.- 5 may.- S.7.